Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Stolüstü Tennis Federasiyasının birgə təşkil etdiyi yarışda 70-ə yaxın idmançı iştirak edib. Yarışın məqsədi Avropa və dünya çempionatlarında iştirak edəcək yığma komanda üzvlərinin müəyyən edilməsi, eləcə də gənclərin stolüstü tennisə marağının artırılmasından ibarətdir.

Yarışda kişilərdən ibarət komandalar arasında 1-ci yeri "Təhsil" Respublika İdman Mərkəzi, 2-ci yeri Bakı Tennis Məktəbi, 3-cü yeri isə "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt filialı tutub. Qadınların komanda yarışlarında isə "Təhsil" RİM-in Sumqayıt filialının yetirmələri III yerə layiq görülüblər.

"Təhsil" RİM-in idmançıları fərdi yarışlarda da uğurla çıxış ediblər. Mərkəzin nümayəndəsi Fərhad İsmayılov kişilər arasında fərdi yarışların qalibi olub, digər tennisçi Ramil Cəfərov isə II yeri tutub.

Yarışın qaliblərinə kubok, diplom və hədiyyələr təqdim edilib.